**Azərbaycan Respublikası adından**
**Q Ə T N A M Ə**

İş № 2(103)-    /2019

“    ”         2019-cu il                                                                 Bakı şəhəri

Bakı Apellyasiya Məhkəməsinin mülki kollegiyası

Hakimlər Raqib Əliddin oğlu Qurbanovun sədrliyi və məruzəsi ilə, Etibar Qəzənfər oğlu Nəbiyev və Aida Əli qızı Hüseyndən ibarət tərkibdə,

məhkəmə iclas katibi Lalə Adil qızı Əbdürrəhimovanın katibliyi ilə,

cavabdeh XXXX oğlunun iştirakı ilə,

Bakı şəhəri Qaradağ Rayon Məhkəməsinin 2(002)-    /2018 saylı mülki iş üzrə qəbul etdiyi 01 oktyabr 2018-ci il tarixli qətnaməsindən cavabdeh XXXX oğlu tərəfindən verilmiş apellyasiya şikayətinə əsasən mülki işə Bakı Apellyasiya Məhkəməsinin binasında, açıq məhkəmə iclasında baxaraq,

**m ü ə y y ə n   e t d i:**

İddiaçı XXXX oğlu cavabdeh XXXX oğluna qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, cavabdeh XXXX oğlundan ona borclu olduğu 15000 ABŞ dolları borcun və ödənilmiş 30 manat dövlət rüsumunun alınıb ona verilməsi barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

Bakı şəhəri Qaradağ Rayon Məhkəməsinin 01 oktyabr 2018-ci il tarixli 2(002)-    /2018 saylı qətnaməsi ilə iddia təmin edilmişdir.

Cavabdeh XXXX oğlu apellyasiya şikayəti verərək, həmin qətnamənin ləğv edilməsi və iddianın təmin edilməməsini xahiş etmişdir.

Apellyasiya şikayəti onunla əsaslandırılmışdır ki, qətnamə səlahiyyəti olmayan hakim tərəfindən çıxarılmışdır. Belə ki, o, yazılı olaraq hakimə etiraz ərizəsini məhkəməyə rəsmi qaydada təqdim etmiş və bu barədə iclas başlayarkən sədrlik edənə bildirmişdir. Çünki iş üzrə iddiaçının vəkili olan XXXX uzun müddət hakimin yanında köməkçi vəzifəsində işləyib. Etiraz ərizəsinə Mülki Prosessual Məcəllənin 22.2-ci maddəsinə əsasən məhkəmənin sədri baxmalı olduğu halda hakim heç bir əsas göstərmədən rədd edərək iclası davam etdirmişdir. Bundan sonra o, iddianı qəbul etmədiyini bir daha vurğulayaraq məhkəməyə iddia müddətin tətbiqi ilə əlaqədar ərizə təqdim etmişdir. Yəni onun iddiaçıya heç vaxt borcu olmamış, heç vaxt ondan pul istəməmiş və qəbul etməmişdir. Əgər onun iddiaçıya borcu var idisə, 2012-ci ildən bu günədək bir dəfə də olsun ona bu barədə heç bir bildiriş, SMS, zəng və ya məktubla məlumat verməmişdir. Bundan başqa şahidlər heç bir vəsatət təqdim edilmədən məhkəmənin öz təşəbbüsü ilə məhkəmə iclasına çağırılmışlar. Şahidlərdən biri iddiaçının doğma qardaşı, digər iki şahid isə iddiaçının yaxın qohumu olmaqla kürəkənidir. Həmin ifadələr isə qeyri-dəqiq və natamam olmuşdur. İddiaçı iddiasını təsdiq edən heç bir sübutu məhkəməyə təqdim etməmişdir. Bundan başqa məhkəmə cavabdeh tərəfin iddianı təkzib edəcək sübutları məhkəməyə təqdim etməklə tədqiq edilməsinə şərait yaratmayaraq qətnamə çıxarmışdır.

Məhkəmə iclasında cavabdeh XXXX oğlu və cavabdehin nümayəndəsi və vəkili XXXX oğlu apellyasiya şikayətini müdafiə etdilər, iddiaçı XXXX oğlu və iddiaçının vəkili XXXX oğlu isə apellyasiya şikayətinə etiraz etdilər.

Məhkəmə kollegiyası hesab edir ki, apellyasiya şikayəti təmin edilməlidir.

Belə ki, iddiaçının öz tələblərinin əsası kimi istinad etdiyi hallar ondan ibarətdir ki, o, cavabdehin bacısı qızının əri olmaqla aralarında əvvəllər çox mehriban dostluq münasibətləri olmuşdur. Özü əvvəllər Rusiya Federasiyasında bizneslə məşğul olmaqla kifayət qədər qazanca malik olmuşdur. Buna görə də XXXX qəsəbəsində təxminən 2008-ci ildə yer götürərək, “XXXX” servizi inşa etdirməyə başlamışdır. Özü işi ilə əlaqədar daima Rusiya

Federasiyasında olduğu üçün tikintiyə nəzarət və rəhbərliyi XXXX qəsəbəsində yaşayan, dostluq və qohumluq münasibətində olduğu cavabdehə həvalə etmişdir. Həmin ərəfədə, yəni "XXXX" servizdə tikinti işləri gedən zaman (2012-ci ildə) cavabdehin mərhum atası XXXX ona zəng edərək, cavabdehə də iş qurmaq üçün yardım etməsini, bunun üçün ona borc pul verməsini xahiş etmişdir. O, 2012-ci ilin dekabr ayında cavabdeh ona məxsus "XXXX" servizdə olan zaman xalası oğlu XXXX birlikdə tikinti sahəsinə gəlmişdir. Həmin vaxtı orada qardaşı XXXX və bacısının əri XXXX də orada olmuşdur. O, onların yanında cavabdehə 15000 ABŞ dolları məbləğində pul vermiş və işlərini düzəldəndən sonra pulu qaytarmasını demişdir. Lakin cavabdeh bildirmişdir ki, aldığı borcu yaxın vaxtlarda qaytaracaqdır. Həmin vaxtı cavabdeh ona məxsus obyektdə tikinti işlərinə rəhbərlik etdiyinə və aralarında səmimi münasibət olduğuna görə pulu verərkən aralarında heç bir yazılı müqavilə bağlanmamışdır. Bir müddətdən sonra cavabdeh işləri təzə qurduğundan borcunu birdəfəlik deyil, ildə 5000 ABŞ dolları olmaqla üç ilə tam şəkildə ödəyəcəyini bildirmişdir. Qohum olduqlarına görə o, cavabdehə inanmış və razılaşmışlar. 2013-cü ilin dekabr ayında cavabdehdən söz verdiyi kimi 5000 ABŞ dollarını istəsə də, o, borcunu yeni ildən sonra qaytaracağını bildirmişdir. Lakin yeni ildən sonrada borcunu qaytarmamış və ilin sonuna kimi 10000 ABŞ dolları qaytaracağına, qalan 5000 ABŞ dollarını isə növbəti ilin sonuna qədər qaytaracağını bildirmişdir. Qohum olduğuna və cavabdehin onun işlərini gördüyünə görə ondan pulunu tələb edə bilməmiş, hər dəfə onun sözünə inanaraq dediyi müddəti gözləmişdir. Cavabdeh 15000 ABŞ dolları borcunu hər il 5000 ABŞ dolları olmaqla üç il müddətinə qaytaracağını bildirsə də, bu üç il ərzində borcunu ödəməmişdir. Hətta bununla bağlı cavabdehin atasının sağlığında ona da bildirmiş və atası da narahat olmamağını, qısa müddətdə pulu qaytaracağını göstərmişdir. Cavabdehin atası təxminən 2015-ci ildə vəfat etdikdən sonra cavabdehin qardaşlarının yanında, o cümlədən böyük qardaşı XXXX yanında da dəfələrlə söhbətləri olmuş və hər dəfə cavabdeh qısa müddətdə borcunu ödəyəcəyini bildirmişdir. Sonradan özünün maddi durumu kəskin pisləşmiş və 2017-ci ilin sentyabr ayında onun özünə də pul lazım olduğuna görə cavabdehdən pulu qaytarmağı tələb etmiş, lakin cavabdeh yenə də bəhanələr etdiyinə görə aralarında mübahisə yaranmışdır.

Cavabdeh iddiaya etiraz edir, öz etirazını apellyasiya şikayətində göstərilənlərlə əsaslandırır və iddia müddətinin tətbiq edilməsi barədə ərizə təqdim edərək, iddianın rədd edilməsini xahiş edir.

Məhkəmə kollegiyası hesab edir ki, iddia rədd edilməlidir.

Belə ki, iddia tələblərinin qanuni əsasını Mülki Məcəllənin 739.1-ci maddəsi təşkil edir.

Həmin maddənin tələblərinə əsasən borc müqaviləsinə görə iştirakçılardan biri (borc verən) pula və ya digər əvəz edilən əşyalara mülkiyyət hüququnu digər iştirakçıya (borc alana) keçirməyi öhdəsinə götürür, digər iştirakçı (borc alan) isə aldıqlarını müvafiq olaraq pul və ya eyni keyfiyyətdə və miqdarda olan eyni növlü əşyalar şəklində borc verənə qaytarmağı öhdəsinə götürür.

Lakin hazırkı işdə qeyd olunan maddənin dispozitiv şərtlərinin mövcudluğu sübut olunmur. Belə ki, iddiaçı cavabdehə 15000 ABŞ dolları məbləğində borc pul verdiyini bildirsə də, bunu təsdiq edən mötəbər sübutları məhkəməyə təqdim etməmiş və Mülki Prosessual Məcəllənin 77.1-ci maddəsi ilə üzərinə düşən sübut etmə vəzifəsini yerinə yetirə bilməmişdir.

İddiaçının təqdim etdiyi şahidlər XXXX oğlu, XXXX oğlu və XXXX oğlunun ifadələri isə bunu təsdiq edən sübutlar kimi qəbul edilə bilməz.

Belə ki, birinci instansiya məhkəməsində şahid qismində dindirilmiş XXXX oğlu öz ifadəsində göstərmişdir ki, XXXX oğlu onun qardaşı, cavabdeh XXXX oğlu isə qohumudur. XXXXla aralarında heç bir ədavət və düşmənçilik mövcud deyildir. XXXXın atası sağlığında qardaşı XXXX oğluna borc pul verməsini xahiş etmiş və 2012-ci ildə qardaşı XXXX, XXXX borc olaraq 15000 ABŞ dolları məbləğində borc pul vermişdir. Pulu "XXXX" servizin yanında təxminən günortadan sonra verməklə şəxsən o, özü, qohumları XXXX və XXXX də iştirak etmişdir. Sonradan XXXX pulu dediyi vaxtda qaytara bilməmiş, hər dəfə də müxtəlif bəhanələrlə pulu vermə müddətini uzatmışdır. XXXX də qohum olduğuna görə çoxda narazılıq yaratmaq istəməmiş, hər dəfə XXXXın qoyduğu vaxtla razılaşmışdır. XXXXla XXXX qohumluqdan əlavə həm də yaxın dost olmuşlar və XXXXin XXXX qəsəbəsində olan tikinti işlərinə XXXX rəhbərlik etmiş və XXXX XXXX etibar edərək bütün haqq-hesabı da onun əli ilə

aparmışdır. Bundan başqa qardaşı XXXXin vaxtı ilə maddi cəhətdən imkanı çox yaxşı olmuşdur. Buna görə də XXXX 15000 ABŞ dollar verməsi ona heç bir problem yaratmırdı.

Şahid qismində dindirilmiş XXXXoğlu öz ifadəsində göstərmişdir ki, XXXX oğlu xalası oğlu, cavabdeh XXXXoğlu isə qohumudur. XXXXla aralarında heç bir ədavət və düşmənçilik mövcud deyidlir. Təxminən 2012-ci ildə o, şəhərdən XXXXlə birlikdə XXXXə məxsus XXXX qəsəbəsində yerləşən və XXXX tərəfindən tikinti işlərinə rəhbərlik edilən “XXXX” servizə gəlmişlər. Təxminən günorta vaxtı olardı XXXX onun yanında XXXX təxminən bir paçka yarımdan artıq dollar şəkilində borc pul vermiş və 15000 ABŞ doları olmasını demişdir. Hətta XXXXlə XXXX arasında münasibət o dərəcədə yaxın olmuşdur ki, XXXX pulu alarkən saymadan qəbul etmişdir. Sonradan isə XXXXla XXXXin münasibətləri pozulmuş və XXXX eşitdiyinə görə XXXX ondan borc aldığı 15000 ABŞ dolları məbləğində pulu qaytararaq hər dəfə müxtəlif bəhanələrlə pulu verməyə dair müddəti uzatmışdır. XXXXla XXXX qohumluqdan əlavə həm də yaxın dost olmuşlar və XXXXin XXXX qəsəbəsində olan tikinti işlərinə, yəni “XXXX” servizə XXXX rəhbərlik etmiş və XXXX XXXX etibar edərək bütün haqq-hesabı da onun əli ilə aparmışdır. Bundan başqa XXXXin vaxtı ilə maddi cəhətdən imkanı çox yaxşı olduğu üçün XXXX 15000 ABŞ dollar verməsi ona heç bir problem yaratmırdı.

Şahid qismində dindirilmiş XXXXoğlu öz ifadəsində göstərmişdir ki, XXXX oğlu onun qaynı olmaqla. XXXXoğlu də aralarında heç bir qohumluq münasibətləri olmasa da onunla da mehriban dostluq münasibətləri olmuşdur. XXXXla da aralarında heç bir ədavət və düşmənçilik mövcud deyildir. XXXX 2012-ci ildə XXXX 1500 ABŞ dolları borca pul almış və pulu onun yanında “XXXX” servizdə XXXX XXXX vermişdir. Pul dollar şəklində olmaqla təxminən bir paçka yarım idi. Çünki pul onun yanında sayılmamışdır. XXXX yaxın vaxta pulu qaytaracağına söz vermişdir. Sonradan eşitdiyinə görə XXXX borc verdiyi 15000 ABŞ dolları məbləğində pulunu dəfələrlə istəsə də, XXXX həmişə müxtəlif bəhanələrlə pulu verməyə dair müddəti uzatmışdır. XXXXla XXXX qohumluqdan əlavə həm də yaxın dost olmuşlar və XXXXin XXXX qəsəbəsində olan tikinti işlərinə XXXX rəhbərlik etmiş və XXXX XXXX etibar edərək bütün haqq-hesabı da onun əli ilə aparmışdır. Bundan başqa XXXXin vaxtı ilə maddi cəhətdən imkanı çox yaxşı olduğu üçün XXXX 15000 ABŞ dollar verməsi ona heç bir problem yaratmırdı.

Apellyasiya baxışı zamanı həmin şahidlər təkrarən dindirilmişlər.

Məhkəmə iclasında dindirilən şahidlər XXXXoğlu və XXXXoğlu birinci instansiya məhkəməsində verdikləri ifadələri təsdiq etdilər və bildirdilər ki, 2012-ci ildə təxminən günortadan sonra iddiaçı ilə cavabdeh “XXXX” servizin qapısının qarşısında görüşmüş və iddiaçı cavabdehə pul verdikdən sonra onlar içəri girmişlər. Bu zaman onlar da orada olmuşlar. Lakin pul verilən zaman pulun məbləğini bilməmişlər. Əlavə olaraq sədrlik edənin suallarına cavab olaraq hər iki şahid ayrı-ayrılıqda bildirdi ki, onlar pulun məhz borc kimi verilməsini və məbləğinin 15000 ABŞ dolları təşkil etməsini iddiaçıdan öyrənmişlər.

Göründüyü kimi həmin şahidlər iddiaçı tərəfindən cavabdehə pulun verilməsini təsdiq etsələr də, pulun məhz borc kimi verilməsini və məbləğinin 15000 ABŞ dolları təşkil etməsini iddiaçıdan öyrəndiklərini bildirmişlər. Bu hal isə qeyd etməyə əsas verir ki, onlarda olan məlumatlar iddiaçıdan alınan məlumatlardır.

Bununla yanaşı işin mübahisəsiz halı ondan ibarətdir ki, iddiaçının apardığı tikinti işlərinə cavabdeh rəhbərlik etmişdir. Bu baxımdan kollegiya qeyd edir ki, həmin şahidlərin ifadələri əsas götürülərək, iddiaçı tərəfindən cavabdehə pulun verilməsi təsdiq olunsa belə, pulun tərəflərin birgə iş fəaliyyəti üçün verilməsi halı da istisna olunmur.

Ona görə də, kollegiya hesab edir ki, həmin şahidlərin ifadələri cavabdehin iddiaçıdan borc pul almasını təsdiq edən sübut kimi qiymətləndirilə bilməz.

Bundan başqa iddiaçı bildirir ki, cavabdehin atası təxminən 2015-ci ildə vəfat etdikdən sonra onun qardaşlarının yanında, o cümlədən böyük qardaşı XXXX yanında da dəfələrlə söhbətləri olmuş və hər dəfə cavabdeh qısa müddətdə borcunu ödəyəcəyini bildirsə də ödəməmişdir.

Qeyd olunanların aydınlaşdırılması üçün cavabdehin vəsatətinə əsasən XXXX XXXX oğlu apellyasiya baxışı zamanı şahid qismində dindirilmiş və o, öz ifadəsində bildirmişdir ki, iddiaçı heç vaxt cavabdehin ona pul borclu olmasını ona deməmişdir. İddiaçının cavabdehə borc pul verib-vermədiyini bilmir və onlar arasında borc münasibətlərinin olmasından xəbəri

olmamışdır. Hazırkı məhkəmə mübahisəsi başlayana qədər tərəflərin münasibətləri yaxşı olmuş və o, heç vaxt onların bu və ya digər məsələ ilə bağlı mübahisələrini eşitməmişdir. Məhkəmə mübahisəsi başlandıqdan sonra iddiaçı ona yaxınlaşmış və o, borcdan məlumatı olmadığını bildirmişdir.

Göründüyü kimi şahid ifadəsi ilə iddiaçının istinad etdiyi həmin hallar da öz təsdiqini tapmır.

Bundan başqa iddiaçı bildirir ki, cavabdeh borcunu birdəfəlik deyil, ildə 5000 ABŞ dolları olmaqla üç ilə tam şəkildə ödəyəcəyini ona bildirmişdir.

Bununla bağlı kollegiya qeyd edir ki, hətta yuxarıda qeyd olunan şahidlərin ifadələri əsas götürülərək, iddiaçı tərəfindən cavabdehə borcun verilməsi təsdiq olunsa belə, borcun məhz hissə-hissə, yəni ildə 5000 ABŞ dolları olmaqla üç ilə qaytarılacağı barədə heç bir sübut iddiaçı tərəfindən məhkəməyə təqdim edilməmişdir.

İddiaçının istinad etdiyi hallara və şahid ifadələrinə əsasən borcun 2012-ci ildə verilməsi qəbul edilərsə, borcun qaytarılma müddəti buna yaxın vaxtda, yəni təxminən 2013-cü ildə, ən geci 2014-cü ildə başa çatır. Hazırkı iddia ərizəsi isə 04.09.2018-ci il tarixdə, yəni 2013-2014-cü il tarixdən hesablanmaqla təxminən 4-5 il keçdikdən sonra verilmişdir. Göründüyü kimi iddiaçı tərəfindən Mülki Məcəllənin 373.2-ci maddəsində nəzərdə tutulmuş üç illik iddia müddəti də ötürülmüşdür. Cavabdeh isə birinci instansiya iddia müddətinin tətbiq edilməsi barədə ərizə vermişdir.

Qeyd olunanlara əsasən kollegiya hesab edir ki, iddianın təmin edilməsi üçün heç bir əsas mövcud deyildir.

Beləliklə, məhkəmə kollegiyası belə nəticəyə gəlir ki, apellyasiya şikayəti təmin edilməli, Mülki Prosessual Məcəllənin 385.1.1 və 385.1.3-cü maddələrində göstərilən əsaslara görə birinci instansiya məhkəməsinin qətnaməsi ləğv edilməli və yuxarıda göstərilən əsaslara görə iddia rədd edilməlidir.

Göstərilənlərə əsasən və Mülki Prosessual Məcəllənin 384.0.2, 392, 393, 405-ci maddələrini rəhbər tutaraq, məhkəmə kollegiyası

**q ə t  e t d i:**

Cavabdeh XXXX oğlu tərəfindən verilmiş apellyasiya şikayəti təmin edilsin.

Bakı şəhəri Qaradağ Rayon Məhkəməsinin 2(002)- /2018 saylı mülki iş üzrə qəbul etdiyi 01 oktyabr 2018-ci il tarixli qətnaməsi ləğv edilsin.

İddiaçı XXXX oğlunun cavabdeh XXXX oğluna qarşı cavabdehdən 15000 ABŞ dolları borcun və ödənilmiş 30 manat dövlət rüsumunun tutulması barədə iddia rədd edilsin.

Qətnamədən rəsmi qaydada verildiyi gündən 2 ay müddətində Bakı Apellyasiya Məhkəməsi vasitəsi ilə Azərbaycan Respublikası Ali Məhkəməsinə kassasiya şikayəti verilə bilər.

Sədrlik edən: imza
Hakimlər: imzalar
Əsli ilə düzdür.

Hakim: Raqib Qurbanov